# Qəbələdə sosial-iqtisadi inkişafın yeni üfüqləri

## 2016-cı ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

(Əvvəli 5-ci səhifədə).

Hesabat ilində məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində də xeyli iş görülmüşdür. Belə ki, Tikanlı ümumi orta və Zərgərli ibtidai məktəblərində əsaslı təmir işləri, o cümlədən şəhər 2, 3 və 4 nömrəli məktəblərdə və təhsil şöbəsində cari təmir işləri aparılmışdır.

Təhsil müəssisələrinin inventar və avadanlıqla təminatı diqqət mərkəzində saxlanılmış və məktəblərə 86.294 manatlıq inventar və avadanlıq alınmış, 63 adda 229.974 manatlıq dərslik gətirilərək məktəb kitabxanalarına verilmişdir.

**Qəbələnin gözəl təbiəti burada turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada müvafiq infrastruktur yaradılmasına, dünya standartlarına uyğun mehmanxanalar tikilməsinə, abad yollar salınmasına xüsusi diqqətlə yanaşılmalıdır.**

**İlham Əliyev.**




*Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində Qəbələ məktəblilərinin Quba, Qusar və Xaçmaz rayonlarına tur səfərləri.*

Təhsilin informasiyalaşdırılması sahəsində işlər davam etdirilmiş, məktəblərdə kompüterlərin sayı 613-ə çatdırılmışdır. Eyni zamanda 53 tam orta məktəb internet şəbəkəsinə qoşulmuşdur.

Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin müəllimi Mədinə Qasımova Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Şəhər 2 nömrəli tam orta məktəbin tarix müəllimi Sədaqət Kazımova “Qabaqcıl təhsil işçisi” döş nişanına layiq görülmüş, Daşca kənd tam orta məktəbinin tarix müəllimi Almaz Əsədova isə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən “Tərəqqi” medalı ilə təltif olunmuşdur.

Şəhər 2 nömrəli tam orta məktəbin XI sinif şagirdi Gültəkin Səfərəliyeva respublika üzrə ilk dəfə keçirilən “Milli-mənəvi dəyərlərimiz haqqında düşüncələrim” mövzusunda inşa müsabiqəsində I yeri tutmuş və nazirlik tərəfindən I dərəcəli diplom və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

Qəbələ Rayon Gənclər və İdman İdarəsi 2016-cı il ərzində keçirilən bir sıra beynəlxalq və respublika səviyyəli yarış və tədbirlərdə gənclərimizin və idmançılarımızın iştirakını təmin etmişdir. 2016-cı ildə rayonumuzda bir sıra mühüm beynəlxalq və ölkə miqyaslı idman yarışları keçirilmişdir. Bunlara ölkəmizin və Qəbələnin ev sahibliyi etdiyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş "Tour d'Azerbaidjan-2016" Beynəlxalq Velosiped Turnirini, ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş Olimpiya Atıcılıq növləri üzrə III Beynəlxaq Qran-Pri yarışlarını, “Gənc xilasedici və yanğınsöndürən” V respublika birinciliyi və IV Beynəlxalq yarışını, həmçinin MDB üzvü olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında Saziş iştirakçılarının bədən tərbiyə və idman üzrə Şurasının iclasını, Olimpiya atıcılıq növləri üzrə gənclər arasında Dünya Kuboku yarışlarını, yeniyetmələr arasında sərbəst-güləş, cüdo və taekvondo idman növləri üzrə Qəbələ açıq turnirlərini və s. göstərmək olar.

Qəbələ Olimpiya İdman Kompleksində hesabat ili ərzində idmanın inkişaf etdirilməsi, olimpiya hərəkatının genişləndirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması sahəsində tədbirlər həyata keçirilmişdir.

Hazırda kompleksin xidmətlərindən istifadə edənlərin 420 nəfəri ödənişli, 437 nəfəri ödənişsiz əsaslarla idmanın müxtəlif növləri ilə məşğul olurlar.

Kompleksin xidmətlərindən ödənişsiz əsasla istifadə edənlər olimpiya idman növləri üzrə təşkil edilmiş seksiyalarda məşğul olan idmançılardır.



*Yeni inşa olunmuş “Qafqaz Tufandağ Mountain Resort” oteli.*

**Hörmətli müşavirə iştirakçıları!**

Bu il rayonumuzda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə iyulun 30-dan avqustun 5-dək keçirilən ənənəvi Qəbələ VIII Beynəlxalq Musiqi Festivalında dünyanın 12 ölkəsinin tanınmış musiqiçiləri və musiqi qrupları iştirak etmişlər.

Festival iştirakçılarının ifa etdikləri klassik Azərbaycan və dünya bəstəkarlarının simfonik, kamera və caz musiqiləri, rəqs qruplarının çıxışları, eləcə də milli muğamlarımız tamaşaçılar tərəfindən böyük maraqla və alqışlarla qarşılanmışdır.

Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsi tərəfindən 2016-cı il ərzində tarixi hadisələr, yubileylər və əlamətdar günlər qeyd olunmuş, maraqlı mədəni-kütləvi, bədii proqramlar hazırlanaraq tamaşaçılara təqdim edilmişdir.

Mədəniyyət mərkəzində Meksikanın Azərbaycan Respublikasındakı səfirliyinin təşəbbüsü ilə meksikalı rəssam Marqarita Moralesin fərdi yaradıcılıq sərgisi təşkil olunmuşdur.

Hesabat ili ərzində Qəbələdə IV Beynəlxalq Mürəbbə Festivalı keçirilmişdir. Qəbələ Rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Milli Kulinariya Assosiasiyasının yaxından köməkliyi ilə keçirilmiş festivalda ona yaxın xarici ölkənin şirniyyat ustaları ilə yanaşı Azərbaycanın 30 bölgəsinin qənnadçıları öz məharətlərini nümayiş etdirmişlər.

Prezident cənab İlham Əliyevin tapşırığına əsasən “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində rayonumuzun ümumtəhsil məktəblərindən 40 nəfər IX-XI sinif şagirdi Quba-Qusar bölgəsinə, Qəbələ-Şəki-Zaqatala-Qəbələ marşrutu üzrə keçirilən tur-aksiya proqramına uyğun olaraq Şirvan şəhəri, Xızı, Tovuz, Siyəzən, Şabran, İmişli, Göygöl, Füzuli, Xaçmaz, Qusar, Quba, Sabirabad, Saatlı, Zərdab, Biləsuvar, Cəbrayıl, Hacıqabul, Kürdəmir və Ucar məktəblilərindən 760 nəfərdən ibarət qrup isə Qəbələ rayonuna səfər etmişlər. Məktəblilər Qəbələnin tarixi abidələri, turizm obyektləri, mənzərəli yerləri, adət-ənənələri, eləcə də son illər inşa edilən istehsal müəssisələri və sosial obyektləri ilə tanış olmuşlar.

Hazırda Qəbələdə 19 turizm istirahət obyekti fəaliyyət göstərir. Onların arasında 5 otel beşulduzludur. Mehmanxana tipli obyektlərdə bir gündə 2518 turisti qəbul etmək imkanı vardır. Ötən il Qəbələ rayonuna gələn xarici və yerli turistlərin sayı 181.014 nəfər olmuşdur. Bu da 2015-ci ildə rayona gələn turistlərin sayından 100.814 nəfər çoxdur. Turistlərdən 107681 nəfəri yerli, 73.333 nəfəri isə xarici ölkələrin vətəndaşlarıdır. Onların 148.433 nəfəri müxtəlif turizm obyektlərində istirahətə, 20301 nəfəri işgüzar səfərə, 12.280 nəfəri isə sanatoriyalarda müalicəyə gəlmişdir.

**Hörmətli tədbir iştirakçıları!**

2016-cı ildə Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin də sayı əhəmiyyətli dərəcədə artmış, beynəlxalq və regionlararası əlaqələrin qurulması istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, Fransanın Kann şəhərinin meri rayonumuza səfər etmiş, Qəbələ və Kann şəhərləri arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi və genişləndirilməsi imkanları araşdırılmışdır.

(Ardı 7-ci səhifədə).